# III RESPUBLİKA TƏSVİRİ SƏNƏT HƏFTƏSİ



■ Ziyadxan Əliyev

Artıq üçüncü ildir ki, respublikamızda təsviri sənət həftəsi keçirilir. Hər il qeyd olunan və artıq ənənə şəklini alan "Təsviri sənət həftəsi"nin tədbirlərinin mayasını maarifçilik və ictimaiyyətə yaxınlaşma təşkil etdiyindən, müxtəlif formalı bu ünsiyyət vasitələrində ictimaiyyətin ayrı-ayrı təbəqələrinin təqdir dolu rəğbətini görmək mümkün idi.

Həftənin başlanğıcında media nümayəndələrini bir araya gətirən Azərbaycan Rəssamlar İttifaqının sədri, xalq rəssamı Fərhad Xəlilov onlara keçiriləcək tədbirlərdən söz açmaqla, onların hər birinin mahiyyəti barəsində məlumat verib.

Təsviri sənət həftəsinin İçərişəhərdəki xalq rəssamı Əzim Əzimzadənin adını daşıyan bağda baş tutmasını yəqin ki, təbii saymaq olar. Bugünkü rəssamların müxtəlif nəsillərinin görkəmli rəssamın abidəsini ziyarətdən sonra, ruhlarında gözəllik duyğularını yaşadan uşaqların sənət yarışması keçirilmişdir. Bir saat ərzində müxtəlif mövzularda rəsmlər çəkən məktəbli rəssamlar yaşlı həmkarları qarşısında imtahan verməli olublar. Sonda münsiflər heyəti onların ayrı-ayrı texnikalarda icra olunmuş əl işlərini dəyərləndirmiş, nəticə olaraq qaliblərə diplom və hədiyyələr təqdim olunmuşdur.

Elə həmin günü V.Səmədova adına salonda respublikanın gənc rəssamları ictimaiyyət qarşısında növbəti yaradıcılıq hesabatı baş tutmuşdur. Sərginin açılışında çıxış edən F.Xəlilov gənc fırça ustalarının axtarışlara meylli olmalarını vurğulamaqla, bunun onların maraq dairəsinin və dəst-xətlərinin formalaşmasında duyulası önəm kəsb etdiyini bildirmişdir. Daha sonra o, il ərzində yaradıcı fəallığı göstərmiş gənc rəssamları mükafatlandırmış, onlara diplom və hədiyyələr təqdim etmişdir. Sərgi ilə tanışlıq göstərmişdir ki, Ülvi Musayev, Əfşan Əsədova, Fərəc Rəhmanov, Bəhruz Kəngərlinin və b. simasında milli rəssamlığımızın tarixən formalaşan ənənələrini layiqincə davam etdirə biləcək yaradıcılar yetişmişdir.







Bu günlərdə rəssamlar növbəti görüşlərini Şüvəlan qəsəbəsində keçirmişlər. Rəssamlar İttifaqının nümayəndə heyəti burada fəaliyyət göstərən və Sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün nəzərdə tutulmuş 4 saylı xüsusi internat məktəbində olmuşlar. 2015-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən tikilmiş tədris korpusu rəssamlarda xoş təəssürat oyatmışdır. Onlar burada yaradıcılığa həvəs göstərən uşaqlar üçün yaradılan şəraitlə tanış olmuşlar. Məktəbdəki rəngkarlıq, heykəltəraşlıq, xalçaçılıq, dulusçuluq və tikmə studiyaları, eləcə də uşaqların əl işləri qonaqlar tərəfindən rəğbətlə qarşılanmışdır. Məktəbin salonunda baş tutan görüşdə məktəbin direktoru Vəfa Seyidova, Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov və xeyriyyəçi Xoşqədəm Məmmədova çıxış edərək, uşaq evləri ilə yaradıcı təşkilatların mənəvi əlaqəsinin gələcək nəslin tərbiyəsində böyük önəm kəsb etdiyini qeyd etmişlər. Görüşün sonunda uşaq evinə tanınmış rəssamlar tərəfindən çəkilən və məktəbin tərtibatında istifadə olunacaq rəngkarlıq əsərləri hədiyyə olunmuşdur.

Həftənin proqramında nəzərdə tutulmuş iki satış-sərgi keçirilmişdir. Bunlardan biri Müasir İncəsənət Mərkəzində, digəri isə V.Səmədova adına sərgi salonunda təşkil olunmuşdur. İçərişəhərdəki mərkəzdə yaşlı rəssamların müxtəlif janrlarda işlənmiş əsərləri satışa çıxarılmışdır. Sərgi salonunda isə Abşeronda fəaliyyət göstərən üç uşaq evi şagirdlərinin əl işləri təqdim olunmuşdur. Qeyd edək ki, toplanacaq vəsaitin xeyriyyə işlərinə sərf olunacağı ikinci sərgi tamaşaçılar tərəfindən maraqla qarşılanmış və buradakı zərif əl işlərinin əksəriyyəti çox qısa müddətdə tamaşaçılar tərəfindən alınmışdır.

Həftə ərzində maarifçilik məqsədilə sənətşünaslar tərəfindən müxtəlif təşkilatlarda Azərbaycan təsviri sənəti mövzusunda mühazirələr də oxunmuşdur. C.Naxçıvanski adına hərbi liseydə və Bakı humanitar liseyində keçirilən mühazirə dinləyicilər tərəfindən maraqla qarşılanmışdır.

Təsviri sənət həftəsinin son günü V.Səmədova adına salonda respublika rəssamlarının hesabat sərgisi keçirilmişdir. Burada göstərilən ən yaxşı əsərlərin müəlliflərinə qiymətli hədiyyələr təqdim olunmuşdur. Rəngkarlıq nominasiyası üzrə bu mükafatı respublikanın əməkdar rəssamı Rafael Muradov almışdır. Qrafik Rafael Əsədov, heykəltəraş Fərəc Rəhmanov və tətbiqi sənət ustası Rəşid Bağırov da digər nominasiyalarda mükafata layiq görülmüşlər.





